# İsmayıl Şıxlı və Avropa ədəbiyyatı



*Azərbaycanın xalq yazıçısı İsmayıl Şıxlı böyük alim, görkəmli tədqiqatçı, yüksək qabiliyyətli pedaqoq idi. O, dünya ədəbiyyatı, onun görkəmli nümayəndələri, ədəbi proseslərlə dərindən maraqlanır, araşdırmalar aparırdı.*

*İ.Şıxlının dünya ədəbiyyatı haqqında olan tədqiqat işlərinin böyük bir qismi Avropa ədəbiyyatına aiddir. 1970-ci ildə İ.Şıxlının üzərində M.Ə.Tahirli, M.B.Həyatzadə ilə birgə işlədiyi "XVIII əsr xarici ədəbiyyat tarixi" çap olundu. Bu kitabda müəlliflərin ayrı-ayrılıqda hansı bölmələri yazdıqları qeyd olunmadığı üçün araşdırma aparmaq çətindir.*

Onun bu sahədə ən nəzərə çarpan işi 1974-cü ildə çap olunmuş "XX əsr xarici ölkələr ədəbiyyatı tarixi" adlı dərs vəsaitidir. Vəsaitin yazılmasında əsas məqsəd ana dilimizdə xarici ölkələr ədəbiyyatına aid vəsait tapmaqda çətinlik çəkən tələbələrə yardım etmək, həmçinin Avropa ədəbiyyatının mürəkkəb bir dövrü - XX əsri haqqında oxuculara məlumat vermək idi. Kitabın birinci hissəsində Fransa ədəbiyyatı, Fransa ədəbi aləmi, meyllər və cərəyanlar, E.Zolya, G.d.Mopassan, A.Frans, R.Rollan, A.Barbüs, L.Araqon haqqında geniş məlumat verilmişdir.

Parnasçılar ədəbi cərəyanından bəhs edən İ.Şıxlı onların mürtəce romantiklərlə bağlı olduğunu, sənəti əyləncə, oyun hesab etdiklərini, yalnız bədbin, əcaib və mistik əsərlər yazdıqlarını qeyd edirdi. O yazırdı: "Bu cərəyanın nümayəndələri olan Bodler Lokont de Gil, Teodor de Bonvil, Joze Maria Eredia və başqaları ... qabiliyyətlərini qiymətləndirə bilmədilər və istedadlarını boş yerə sərf etdilər". (Şıxlı İ. "XX əsr xarici ədəbiyyat tarixi" /Fransız ədəbiyyatı/ Bakı, "Maarif", 1974, səh 5). Simvolistlər isə simvollar, rəmzlər aləminə meyl edirdilər, ədib "simvolistlərin estetikasına Şopenhauerin, Berqsonun fəlsəfi konsepsiyalarının təsir etdiyini vurğulayırdı. İ.Şıxlı daha bir ədəbi cərəyan - naturalizm cərəyanının üzvlərinin "sənət həqiqətə, gerçəkliyə əsaslanmalıdır" fikrini irəli sürdüklərini, bu fikri həyata keçirdikləri zaman ifrata vardıqlarını və naturalizm nəzəriyyəçiləri İppolit Tenin, Emil Zolyanın fikirlərinin fransız ədəbiyyatına zərər vurduğunu söyləyir.

Emil Zolya naturalizm cərəyanının görkəmli nümayəndələrindən biri idi. Onun "Tereza Ragen", "Madlen Fera", "Ruqonlar və Makkarlar", "Üç şəhər", "Dörd incil" əsərləri və naturalizmlə bağlı onlarla məqalələri vardır. Lakin ən böyük və məşhur əsəri 25 ilə yazılmış 20 romandan ibarət "Ruqonlar və makkarlar" epopeyası idi. İ.Şıxlı yazırdı: "Emil Zolya bir ailənin timsalında həm irsiyyət, qan və mühit məsələsini sübut etməyi, həm də İkinci İmperiya dövrünü təsvir etməyi qarşısına qoymuşdur". (Şıxlı İ. "XX əsr xarici ədəbiyyat tarixi", Bakı, "Maarif", 1974, səh 5).

İ.Şıxlı böyük fransız yazıçısı Gi de Mopassanın "Həyat", "Gözəl dost", "Mont Oriol" kimi iri həcmli əsərlərinin, "Madmuazel Fifi" "Zinət", "Boyunbağı", "Eybəcərlər anası", "Dəli qız" novellalarının öz bədii və siyasi dəyəri etibarilə dünya ədəbiyyatının ən gözəl nümunələri olduğunu yazırdı.

Ədib həyatını elmə və bədii yaradıcılığa həsr etmiş Anatol Fransın əsərlərinin fəlsəfi mahiyyət daşıdığını qeyd etmişdir. Yazıçının "Korinf toyu", "Silvestr Bonnarın cinayəti", "Tais", "Allahlar hərisləşir", "Mələklərin üsyanı" "Müasir tarix", "Pinqvinlər adası" əsərlərinin ictimai-siyasi mahiyyətini açır: "Anatol Frans bütün əsərlərində insanların dərdini çəkmiş, onları müdafiəyə çalışmışdır. Yazıçı üçün insan səadəti, onun xoşbəxtliyi hər şeydir."

İ.Şıxlı I Dünya müharibəsindən sonrakı Fransada müxtəlif ədəbi cərəyanların mübarizəsinin, yeni ədəbi üsullar axtarmaq meylinin gücləndiyini, dövrün xüsusiyyətlərindən doğaraq müxtəlif əqidəli yazıçıları yetişdirdiyini qeyd edir. O, katolik ədəbiyyatının, eyni zamanda, realizmin tanınmış nümayəndəsi Fransua Moriakın "Roman" adlı nəzəri əsərini şərh edərək Moriakın insan psixologiyasının, insanın daxili ziddiyyətlərinin təsvirini əsas götürdüyünü, bu xüsusiyyətlərin "Tereza Dekeyru", "İlan yumağı", "Çıxılmaz yol" kimi bədii əsərlərində daha qabarıq təsvir edildiyini irəli sürür.

Kitabın bu bəhsində yuxarıda adlarını çəkdiyimiz yazıçılardan başqa "Avropada yetişmiş ən böyük yazıçı" kimi qiymətləndirilən Romen Rollan, Fransa ədəbiyyatında xüsusi yer tutan Anrü Barbüs, nəzm və nəsr sahəsində müvəffəqiyyətlə çıxış edərək iri həcmli əsərlər yaradan Lüi Araqonun da həyat və yaradıcılıqları nəzərdən keçirilmişdir.

Kitabın II hissəsi alman ədəbiyyatına həsr olunmuşdur. Alman ədəbiyyatında Fransa ədəbiyyatı bölməsində oxuduğumuz naturalizm cərəyanından başqa realizm və dekadençilik ədəbi cərəyanları da inkişaf etmişdir. İ.Şıxlı səbrlə bu cərəyanları araşdıraraq onların haqqında yazırdı:

"Dekadençilər real gerçəkliyi və onun obyektiv qanunlarını rədd edirdilər". Lakin dekadençilərin ... bir çoxu Nitsşe fəlsəfəsini müdafiə edirdi. Nitsşenin bütün yaradıcılığı demokratiya əleyhinə çevrilmişdi. İnsanların tərbiyəsi üçün ən yaxşı vasitəni isə müharibədə görürdü.

Bütün bunlarla yanaşı xalq həyatının təsiri ilə alman ədəbiyyatında realizm güclənir və özünün ən görkəmli nümayəndələrini yetirirdi. Bu realist yazıçılar ... tipik hadisələri qələmə alır və yüksək bədii keyfiyyətli əsərlər yaradırdılar" (Şıxlı İ. "XX əsr xarici ədəbiyyat tarixi", Bakı, "Maarif", 1974, səh 5).

İ.Şıxlı Almaniyanın görkəmli yazıçılarından biri Erik Mariya Remarkın həyat və yaradıcılığından bəhs edir. E.Remarkın əsərlərinin əsas mövzusu müharibə, onun gətirdiyi fəlakətlər, yaratdığı problemlər idi. Müharibə mövzusu İ.Şıxlının da ağrılı nöqtəsi idi. Ona görə də "Qayıdış", "Zəfər tağı", "Üç yoldaş" və s. əsərləri təhlil edərkən əsas məqamları nəzərə çatdırmağa cəhd göstərirdi. Ədib daha sonra realist yazıçılar Henrix Mann, Tomas Mann, alman poeziyasının görkəmli nümayəndələrindən biri olan İohannes Bexer, ictimai və tarixi romanlar müəllifi kimi tanınan Lion Föhtvanger, böyük dramaturq Bertold Brext, antifaşist məzmunlu yazıları ilə seçilən Anna Zegers kimi yaradıcı insanlar haqqında geniş məlumat vermişdir.

Kitabın ən kiçik bölməsi Skandinaviya ölkələri ədəbiyyatının payına düşmüşdür. İ.Şıxlı Skandinaviya ədəbiyyatının inkişaf yollarından, Norveç və İsveç milli ədəbi dilinin yaradılması haqqında, bu sahədə Henri İbsenin böyük xidmətindən bəhs edir. O, Henri İbsen haqqında deyir: "Norveçin görkəmli yazıçısı Henri İbsen dünya şöhrəti qazanmış və dünya ədəbiyyatına təsir göstərmiş bir sənətkardır. Yazıçının yaradıcılığı daim inkişaf və təkamüldə olan, zamanın ziddiyyətlərindən çıxış yolu axtaran bir ədəbi irsdir."

Martin Anderson - Nekse isə Danimarka ədəbiyyatının kommunist dünyagörüşlü nümayəndələrindən biri, şair, publisist, dramaturq, nasir kimi təqdim olunur.

"Mürəkkəb ədəbi və ideoloji mübarizələr"lə dolu ingilis ədəbiyyatı ədəbi cərəyanlar və onların arasındakı ziddiyyətlərdən doğan münaqişələrlə zəngindir. İngilis ədəbiyyatında simvolizm, realizm, dekadençilik, naturalizmdən başqa neoromantizm adlı bir ədəbi cərəyan da fəaliyyət göstərirdi. İ.Şıxlı bu haqda yazır: "Həmin cərəyanın nümayəndələri macəra romanlarına daha çox meyl edirdilər. Onlar sərgüzəştlərlə dolu ekzotik əsərlərin yaranmasına çalışırdılar. Bu ədəbi cərəyanın ən görkəmli nümayəndəsi Stivenson... olmuşdur. Onun "Dəfinələr adası", "Oğurlanmış"... və s. əsərləri qeyri-adi və cazibədar bir həyatdan danışır" (Şıxlı İ. "XX əsr xarici ədəbiyyat tarixi", Bakı, "Maarif", 1974, səh 5).

Ədib ingilis ədəbiyyatında tənqidi realizmin nümayəndələri Tomas Hardi və Con Qolsuorsinin yaradıcılıqlarına toxunmadan keçə bilmir. T.Hardinin "sadə insanın məziyyətlərini, yüksək əqlə malik olmasını, sabit və təmiz əxlaqi keyfiyyətlərini, istedad və bacarığını böyük bir ehtiras və məftunluqla təsvir etdiyini, C.Qolsuorsinin də "ictimai tiplər və səciyyələr" yaratdığını, "hər bir surəti hərəkətdə, fəaliyyətdə göstərdiyini, "əsərlərində ...insana məhəbbətin üstün olduğunu qeyd edir. O, ingilis ədəbiyyatının daha bir nümayəndəsi C.B.Şounu yüksək dəyərləndirərək, onu "dünya ədəbiyyatının güclü satirik yazıçısı, publisist və dramaturqu adlandırır. Dünya ədəbiyyatında elmi-fantastik romanlar müəllifi kimi məşhur olan Herbert Uellsin yaradıcılığını Jül Vernin yaradıcılığı ilə eyniləşdirmək" istəyənləri İsmayıl Şıxlı tənqid edərək, bunun yanlış təşəbbüs olduğunu sübüta yetirirdi: "Jül Vern kimi elmi nailiyyətlərin real inkişafını əsas götürür və oxuculara bu inkişafı dərk etməkdə kömək edirdi... Herbert Uellsi isə fantaziya yox, ictimai məsələlər maraqlandırırdı. O, elmi fantaziyanın köməyi ilə özünün orijinal ictimai fikir və mühakimələrini irəli sürmüşdür". Yazıçı daha sonra dünya ədəbiyyatında adı Remark, Heminquey kimi yazıçılarla bir sırada olan R.Oldinqton, "bədii yaradıcılıqla ictimai fəaliyyəti birləşdirməyi bacaran sənətkar" kimi bəhs etdiyi C.Oldricin həyat və yaradıcılıqları haqqında fikirləri söyləmişdir.

Kitabın son bölməsi Amerika ədəbiyyatına həsr edilmişdir. Burada XX əsr Amerika ədəbiyyatının görkəmli yaradıcıları olan Cek Londonun, Mark Tvenin, T.Drayzerin, E.Sinklerin, E.Heminqueyin yaradıcılıqları nəzərdən keçirilmişdir. Biz son bölməni oxuduqca İ.Şıxlının Amerika ədəbiyyatının adlarını çəkdiyimiz yaradıcı şəxsiyyətlərinə, onların yaradıcılıqlarına dərin bələdliyi və müsbət münasibətini aydın görürük.

**Ziba Məmmədova**